# Qunça

A.Elyar



**1. Pərdə**

**Karakterlər**:
**Qunca** 8-9 yaşında qız, gülsatan
**Aydın** 24 yaşında müəllim, yazıçı
**Cəlal** 26 yaşında müəllim, nəqqaş, Aydının dostu
**Ana** Qunçanın anası,30 yaş.
**Kiçik qız** 9yaş.Qonçanın tanışı
**Kiçik oğlan** 10yaş.Qonçanın tanışı
**Dokdur** Mərizxanada
**Pərəstar** Mərizxanada
**Iki polis** Piyada yolunda
**Şofer** Xıyavanda
**Tükançı** Tükanda
**Yoldan geçənlər** Kişi və arvad-uşaqlar

**1.Səhnə - Xiyavan**

**Qunça bir əski mantor və çərqat də, xıyavanın piyada yolunda, baqqal tükanı qabağında, üstü tabaq-tabaq çeşidli yemişlərlə dolan, tükanın qabağındakı mizin yanında, cürə-bə-cürə güllər inən dulu laylun sətilin kənarında, əlində iki dəstə gül durub haraylayır. Kişi və arvad uşaq gəlib-getmək də di.**
**Maşınların səsi havanı bürüyübdür.**

**Qunça** Ay xanım təzə gül...ay ağa təzə gül... sal yada , qoyma qala... gəl apar ha, ucuz dur ucuz...

**İki uşaq, qız və oğlan, onun yanına gəlirlər. Qızın qucağında bir neçə dəstə gül vardı. Və oğlan ipi nən boynuna asılmış bir taxta qutunun içinə, fəndək, sığara, səkkiz və ha belə bir şeylər qoyub, satır.**

**Qız uşağı** Heç satıbsan?
**Qunça** Yox.
**Qız uşağı** Məndə bir şey satmamışam.
**Oğlan uşağı** Amma mən, bir paket sığara satmışam.
**Qız uşağı** Yalan deyir, satmayıbdı.
**Qunça** Gop elirsən?
**Oğlan uşağı** Yox vallah, fəqət bir paket sığara satmışam.

**Bu arada uşaqlar görürlər iki kişi polis gəlir. Tu dabana qaçırlar. Qunça gül sətilin götürüb tükana soxulur.**

**Tükançı** (şeyləri düzə-düzə)Uşaq, olar bizi incit miyəsən? Axırda bir gün polis səni tutacaq...bunu anayan deməliyəm, belə olmaz.
**Qunça** ( qorxub.) Sükut.
**Polislər gəlib tükanın qabağından keçirlər. Qunça ehtiyatla, qapıdan sol-sağa bax-baxa eşiyə çıxır.**
**Aydın həmişəki kimi, həftədə bir yol kiçik qızdan gül almaq üçün tükanın qabağından geçir.**

**Aydın** səlam xanım qız, mənim dəstə gülümü saxlayıbsan mı?
**Qunça** (sətili görsətərək)Bəli ağa, saxlamışam. Baxın hansını istərsiz götürün.
**Aydın** (bir dəstə gül seçib)Çoxdandı sənnən tanışam. Olar mı adıyın soruşum ?
**Qunça** Adım Qunça.
**Aydın** Mənim də adım Aydın. Mən uşaqlara mədrəsədə dərs verirəm.
**Qunça** Bəs siz ağa müəllim siz.
**Aydın** Hən. Səndə mədrəsəyə gedirsən?
**Qunça** Yox. Mənim sicillim yoxdu. Atam istirdi alsın ki öldü. Anam deyir lazım deyil mədrəsəyə gedim. Gərək işliyim. Hərnə çıxsa genə xeyirdi.
**Aydın** İstəyirsən mədrəsəyə gedəsən?
**Qunça** Həyə, istirəm. Amma mən gərəx işliyəm. Biz kasıbıx.
**Aydın** Al, buda gülün pulu. Gələn pənşəmbəyə genə bir dəstə saxlarsan.
**Qunça** (ciblərində xırda pul axtara-axtara)Olsun saxlaram.
**Aydın** Canım xırda pul axtarma, lazım dəyil. Qalanı qalsın sənə. Xuda-fis(xuda hafiz)
**Qunça** xuda fis.
**Aydın dükandan bir az uzaqlaşıbdı. Polislər dönüb gəlirlər. Qunça onları görcək şey-şüyün götürüb qaçır. Birdən-birə maşın tormuzunun səsi gəlir. Aydın dönüb görür Qunça xıyavanda yerə sərələnibdir.**

**Aydın** (qaçır) Qu...n ç...a!
**Şofer** Yetim qalasan! Maşın qabağına qaçırsan məni yazıq eliyəsən mi?
**Aydın** Söyüş eləmə, yardım et onu mərizxanaya aparaq.
**Şofer** Ağa! Bu sizin uşağınızdı?
**Aydın** Yox! Tanışımdır ...

**Polislər gəlib təsadüfə yetişib və uşağı mərizxanaya göndərirlər. Dükançı Qonça-gılın qonşuna telfon eləyib onun anasına xəbər verir.**

**2. Səhnə- Mərizxana**

**Mərizxanada otaq. Dokdur, Pərəstar, Aydın, Qunçanın anası, mərizin yanındadırlar. Qunça
ayılıbdı, amma hələ halı yaxcı dəyil.**

**Dokdur** Şans gətirib ki bir şey olmayıb. Amma bir həftə burda qalmalıdır.
(Dokdur və Pərəstar gedirlər.)
**Qunça** Mama! Qorxma, mən ölməmişəm. Bircə yarpaq kim əsirəm!
**Ana** (Ağlıya-ağlıya) Bala ölümdən qurtuldun.
**Aydın** Əsməğində gedər, qorxma.
**Qunça** Mama! Güllərim necə oldu?
**Ana** Bilmirəm qızım.
**Aydın** Hamısını yığıb gətirmişik. Onları mən evə aparacağam. Buda onların pulu, anan alır; razısan mı?(pulu verir)
**Ana** Çox sağ olun.
**Qunça** Həyə razıyam. Əmı çox təşəkkür elirəm, siz mənim babam kimi çox mehribansız.
**Aydın** Xahiş elirəm. Bir iş görməmişəm. Mən indi gedirəm, sabah genə gəlib sənə baş vuracağam. Xuda hafız. (Aydin otaqdan çıxır.)
**Qunça** **X**udafız.
**Ana** Xuda-hafız.

**3.Səhnə- Dost**
**Aydının otağı. Miz, səndəl, mobil. Bir neçə dənə yazıçı tablosu duvarda. Kitablar qəfəsədə. Labtop yazı mizinin üstündə və iki böyük güldan, mizin bucaqlarında. Aydın oturub mizin qabağında, əlində kitab telefon zəng çalır. Cəlal Aydının dostu istir onu görsün; və bir azdan sonra içəri gəlir.**

**Cəlal** Heç bəlldi sən hardasan? İki gündü zəng vururam yoxsan.
**Aydın** Bilirsən niyə yoxam?
**Cəlal** Yox, bilmirəm.
**Aydın** Bəs bil ki başım ağrır, istirəm başıma bəla açam!
**Cəlal** Mübarək olsun. Evlənirsənmi?
**Aydın** Goy get baba də, elə bir kefin gəlib; hələ bir belən səfehləməmişəm.

**Cəlal** Yaxcı, bəs dərdin nədir?
**Aydın** Bir kiçik dostum var, adı Qunçadır, xıyavanda gül satır. İstirəm eyər olsa bu günlər adını mədrəsəyə yazdıram. Əlbəttə xərcini gərək cibimdən verəm, bu heçzad hüququmdan. Atası ölübdu, anasınında bir düzəməlli işi yoxdu. Bəs indi bildin başımın harası ağrır?
**Cəlal** Bildim, başıyın içi ağrır, beynin xarabdı, əğlin işləmir. Tutduq bu işi gördün, və vurdu sabah sən bir çətinliyə düşdün, ya başıyan bir bəla gəldi, onda bu uşaq necə olacaqdı; kim ona yetişəcək? Bu gülləri də ondan alıbsan? Bəs buna görə buranı gülüstan bağı eləmisən.
**Aydın** Həyə, ondan almışam. Yaxcı dir ki indi biləsən, əyə bir gün əmi Aydın olmasa, əmi Cəlal həmişə onun başı üstə var.
**Cəlal** Vay dədəm vay! Sən mənidə bu işlərə qatırsan? Yox qardaş yox, məni hesab eləmə, mən bu tələyə düşmərəm.
**Aydın** Qorxma, mənə bir şey olmaz. İndi əmi Səhənd durur, sabah da olmasa əmi Savalan ki ha var.
**Cəlal** Yox qardaş yox, məni qatma! Mənim Səhənd Savalandan başım çıxmaz. Ağrımaz başıma dəsmal bağlıya bilmərəm. Mənim münəccimlikdə əlimdən gəlməz.
**Aydın** Başın çıxar, yaxcıda çıxar, mən olmasam görərsən ki çıxar.
**Cəlal** Sən olmasan məndə ölmüşəm. Ölüdən bircə yas çıxar. Olar mı bir mənə deyəsən bu işlərin hasılı nədi?
**Aydın** Ancaq sən eliyə bilərsən bir gözəl tablo mən və dostumdan çəkəsən. Oda olar sənin böyük əsərin.
**Cəlal** Yox! Çəkmərəm. Mən onu çəkərəm ki görürəm, daha sənin xəyal röyayın çəkə bilmərəm.
**Aydın** Bunuda görərsən və çəkərsən. Arxayın ol!
**Cəlal** Fikir elə, bir uşağı mədrəsəyə göndərməklə xiyabandan uşaqlar yığışar mi? Bir uşağın xərcin verdin hər şey düzəlib qurtuldu?. Minlər uşaq xıyavanda var, onlarla istırsən nə edəsən? Canım gözüm yox, bu yol ki sən gedirsən "Hatəmtayı" yoludur. Mənim yolum deyil. Mən bilmirəm dəli sən, aşıq san, Hatəmtayı san, nəsən? Yox, sən bunların hamısısan! Amma mən bilirəm ki bunların heç birisi deyiləm. Tutaq yüz nəfər uşağı yığdın bir evə, obirilərlə ne eliyəcəksən? İndi gəldik bir şəhərin xiyaban uşaqların yığdın bir evə, başqa şəhərdəkilərlə nə edəcəksən? xərc-e-məxarıcın hardan gətirəcəksən?
**Aydın** Dövlət və camaatdan alacağam.
**Cəlal** Nə dövlət pul verər, nədə camaat! Əyər versələr də elə az olar ki bir şeyə dəyməz. Yada burda-urda nəçədənə ev açarsan, genədə minlər uşaq xiyavanda avara qalarlar. Müşkül kökdən, rişədən gərək kəsilsin, yox baş budaqdan.
**Aydın** Müşkülü həm rişədən və həmdə baş budaqdan kəsərık. Xəyalın rahat olsun. Heç bir şeyi unutmarıq.
**Cəlal** Yaxcı, kəs görək.
**Aydın** Mədrəsəyə ad yazmadan bir ay geçir. Pis vaxtdır. Sən xanım müdir nən dostsan, danış yeni şagirdı qəbul etsin; məndə uşağın anasını çəkərəm idarəyə sicilli alsın. Bilirsən eliyə bilmərik əli qoyub əl üstünə oturub hürüt-hürüt baxaq.

Və bu qunçalar da açılmamış solsunlar. Bunların odunda yanıb kül olmaq gərək. İndi sən bunun adın nə qoyursan qoy, dəlilik, ağılsızlıq, vurğunluq, önəmli deyil, önəmli budur ki bunlara bir iş görək, heç olmazsa dodaqlarında gülüş qunçaları açılsın. İstəyirsən gedib evlənib qolam olasan? Ya gedib dərs oxuyub doktora alasan? Bunu bil, eyər bu işlərin dalısıca getsən, doktora alıb mız sahabı olsan, özüm gəlib çıxıb miziyin üstünə oturacağam! Toyuq əvvəl gəlib ya yumurta; mənə tuyuq-yumurta məsələsi çıxartma; müşkülü həm irişədən vurarıq həmdə baş budaqdan; bir dəstə oradan vurar, bir dəstədə buradan. Bu dədə-nənəli müşküllər, gərək hər taydan tapdalansınlar.

Tablolarıyın pulun qoy qırağa, məndə nə kitab çıxartdım pulun qoyaram onun üstünə, lazım olacaq.

**Cəlal** Yaxcı. Bəs mən gedib danışaram.

**Aydın** Danışaram yox, gərək razı edəsən.

**Cəlal** Niyaran qalma! İndi de görüm nə vaxt bu uşağı nan tanış oldun?

**Aydın** Gel onu da sənə tərifliyim...

(söhbət eliyə-eliyə otaqdan eşiyə gedirlər)

**4.Səhnə**
**Arzu**

**Qunça mərizxanada təxt üstündə oturub bir karton filimə baxır. Bir az sonra filim qurtulur.**
**O telviziyonu bağlır. Bu an Aydın əlində bir hədiyyə içəriyə girir. İkindi dir.**
**Mədrəsələr təzə bağlanıblar.**

**Aydın** Səlam. əmı can, necəsən, kefin yaxcıdı?

**Qunça** (o təxtdən aşağı yenib sürütmə geyib əl verir). Mersi, yaxcıyam. Yalnız bir az öz içimdə
əsirəm.

**Aydın** Oda gedər. Gel, bu hədiyyəni sənə gətirmişəm.(Verir əlinə).

**Qunça** Aça bilərəm?

**Aydın** Niyə yox, sənə gətirmışəm.

**Qunça** (açır). Oh! Rəng midad, nəqqaşı dəftəri, adams və şaqalat. Çox sağ olun. Nəqqaşı az bacarıram. Yalnız hərdən- bir dostumunkun çəkmişəm, aparıb mədrəsəyə yaxcıda nömrə alıbdı.

**Aydın** Oh! Bəs sən yaxcı bacarırsan. Deyirdim bə hələ gərək bunu sənə örgədəm.

**Qunça** Hən, istirəm örgəşəm.

**Aydın** Bəs gəl bir şey çəkək. De nə istəyirsən çəkəsən?

**Qunça** Bir püflək. İpiynən. Belə gedir göyə(əlinin hərəkəti nən görsədir).

**Aydın** Sən çək mən baxıram.

**Qunça** (çəkib qurtarır).Yaxcıdı?

**Aydın** Çox gözəldir. Mən sən yaşında olanda bələ başarmırdım.

**Qunça** Mersı

**Aydın** Dedin öz içində əsirsən, necə?
**Qunça** Belə ha!(O əllərin yumub baş-bədənin titrədir).
**Aydın** Bildim, necə olsa gedər. Dözmək gərək. Toxtadın burdan getdin, istəyirsən genə gül satasan?
**Qunça** Pul lazımdı. Həyə, mən gərək işləyim. Olmaz ki mama-ma köməhy eləmiyim.
**Aydın** Yox! Pula, işə, anayan fikir eləmə! İstəyirəm biləm özün nə istirsən mi?
**Qunça** (fikir elir).Özüm nə istirəm? İstirəm oynuyam.
**Aydın** Oyun bacarırsan?
**Qunça** Xəsdərçin(naqqışlı), beşdaş, top oyunu(hərəkətlə onları göstərir). İstirəm mədrəsəyə, gəzməyə gedəm. Yox olmaz. Onda daha yoldaşlarım yoxdular, onlar xıyavanlarda adams, gül, CD satırlar və maşın şüşəsi silirlər. Daha birisi yoxdur ki mən-nən oynuya.
**Aydin** Niyə. ayrı uşaqlar vardılar, onlarla dost olub oynarsan. Mədrəsəyə də getsən
genə təzə yoldaşlar taparsan.
**Qunça** Yox! İstəmirəm tapam!
**Aydın** Niyə? Adam yeni yoldaşlar taparsa ki qolay olmaz.
**Qunça** Yox! Istəmirəm yoldaş tapam!
**Aydın** Olar diyəsən niyə istəmirsən?
**Qunça** Dostum ölübdür!
**Aydın** Heyif! Çox acındım, havaxt, niyə öldü?
**Qunça** Neçə ay bondan qabax. Bilirsiz məndə onnan öldüm! Yanı istirdim öləm amma
qoymadılar! Bir gün gəldilər onu maşına qoyub qəbiristanlığa apardılar. Təzə mutad,
olmuşdu. Öncədən mən bilmirdim, eləki bildim çox ağladım. Onu çox istərdim, çox mehriban idi. Çox yaxcı idi. Çox ağladım. Biləsinə dedim sən alla ötür! Bu işin
dalısıca getmə! Dedi, yaxcı, amma genə getdi, buraxmadı. Bilirdim öləcək, öldü də.
Ağladım-ağladım, çox da ağladım! Ağlamıyaydım? Axı yoldaşım idi, istirdim biləsin, gözümün qabağında sağlığın aradan aparırdı, məndə bilirdim ki öləcək! Burdan-ordan eşitmişdim belə uşaqlar tez ölüblər. Çox qorxurdum. Çox! O öldü, məndə noxuşladım!
Bir gün gördüm anası bir dəstə gül əlində mindi otobusa. Məndə ikimcinə minib dalıca getdim. Gördüm gülü qoyub qəbirin üstünə ağlayir. Dözdüm qurtulub qayıdıb getdi. Axşam ıdı. Getdim yoldaşımın qəbiri üstə, üzümü dayadım torpaqlarına,
sərildim. şırın-şırın doyunca ağladım; yalvardım qapını açsın məni də alsın öz yanına amma açmadı. Qaldım ağlıya-ağlıya...heç bilmədim daha nə oldu. Bircə o zaman ayıldı ki süb idi, qəbirsanlığın sahabı (gözətçini anladir) məni oyatdı və öz dəftərinə apardı. Sonra polisi çağırıb məni onların elinə verdi.
Mamam xəbər vermişdi ki mən itmişəm. Yox!

İstəmirəm belə yoldaşım olsun. İstəmirəm biri nən dost olam. Qorxuram genə bir şey ola, yoldaş sözə baxmaya, düşə ölə. Axı bilirsiz, adam istiyir, çox-çox da istiyir.
Bütün göylər, dənizlər qədəri ;bütün ulduzların sayı qədərı(əlləriylə
onların böyüklüğün görsədir).Birdən yoldaş düşüb ölür. Məndə istədim onla öləm,
amma ayrılmayam...bilirsiz...(ağlır).
**Aydın** Canım, gözüm ağlama! Bağışla ki səni incitdim. Bilirəm çox ağır və acıdı. Çox-çox.
Məndə bir gün hiss etdim dostum kefsizdi. Sağlığın əldən verir. Elə bildim mutatdı, amma yanında dəyildim, dərdini yaxı soruşum, və yardım edim.
Qaldım dərd ilə güman arasında, yandım ağladım. Evi də bildi mən yaş tökdüm amma, kimsə anlamadı nədən?
**Qunça** Məni anladılar sizi anlayalar? Məni anlayanda sizi də anlayacaqlar.
Sizdən iraq, sizdən iraq, böyüklər çox kiçikdirlər!
**Aydın** Olsun, yoldaşlıq işin özün bilərsən. Dedin istəyirsən mədrəsəyə gedəsən, əyə anan göndərsə gedərsən, hən?
**Qunça** Niyə getmərəm, həyə gedərəm. Istirəm gedəm. İstirəm
yazam, oxuyam, nəqqaşı çəkəm(cızam), xıyavanda yazıları oxuyam, istirəm hər nəyi
öyrənəm (sözlərlə hərəkətləri birləşir). Gündə xiyabanlara düşüncən mədrəsəyə gedəm. Daha bu xanıma o ağaya yalvarmayam məndən bir şey alsınlar
Mənim heç zadım yoxdu. Mənim nə sicilim var nədə paltarım, nə dəftər kitab və kifim. Heç-heç zadım. Bəyə olar məni mədrəsəyə qoyalar?
**Aydın** Ananla danışaram. Baxaq görək olar ya yox. Öncədən istədim biləm sən özün nə istəyirsən.
**Qunça** Özüm ki istirəm, eyə olsa.
**Aydın** Əmı can, çox yaxcı, bəs özüyün gözlə, genə gələcəyəm. (onu bağrına basır).
**Qunça** Mən sizi tapa bilmərəm. O olmasın ki birdən gedib gəlmiyəsiz.
**Aydın** Canım! Niyaran olma, gələcəyəm. Özüyün qoru! Hələlik.
**Qunça** Hələlik( o əlinə midad -kağaz götürür ).

**2.pərdə**
**5. səhnə**
**Ana**

**Qunça-gilin evi: 3-ü-4 bir pəncərəli otaq. Yatıb-oturmağa və yemək bişirməyə. Duvara dayanmış yorğan-döşək, aşpazxana hacatları , və bir tikiş çərxi gözə dəyirlər. Zəngin səsi gəlcək, qadın(qunçanın anası) eşiyə çıxıb Aydını içəri gətirir.**
**Qadın** Buyurun əyləşin(yer görsədir),çox xoş gəlmişiz
yoxsul ana-balanın evinə. Ajlığız var buyurun; yoxsulluğumuza, evin darlığına baxmayın, rəyimiz genişdir. Pənir- çörəkimiz var, və acı

çay.

**Aydın** Məmnun. Çay içərəm.

**Qadın** Rahat gəldiz?

**Aydın** Bəli, burda sizin qonşu yardım elədi.

**Qadın** Biz sizi çox incidirik.

**Aydın** (dizi üstə əyləşir). Xahış elirəm, yox ,heç bir əziyyət arada yoxdu. **Mən Qunçanın müşkülün öz müşkülüm bilirəm**, buna görədə

istədim siz inən bir danışım. Razısız uşaq mədrəsəyə getsin?

**Qadın** (bir çay verir). Niyə gərək razı olmayam? Bu hər ananın böyük diləkidir ki uşağı dərs oxuyub böyüyüb bir işin sahabı olsun. Sevinirəm ki biz bəzi adamlar kimin yoxsulluqdan əlibağlı qalıb əyri yollara düşməmişik, öz qıçımız üstə durmuşuq; ata-anamda əllərindən gələn qədər bizə yardımçı olublar. Amma elə müşküllər var ki qoymurlar bizi rahat yaşıyaq. Qunçanın sicillisi yoxdu.

.

**Aydın** Bunu qunçada mənə dedi.

**Qadın** Çünki kəbin kağızım yoxdu. Mən nişanlı olanda atası fövt elədi. Biz altı ay nişanlı qaldıq. Bu arada mən boylu oldum. O fəhləlik elirdi, bir gün getdi işə daha qayıtmadı; duvar altında qalmışdı; dedilər.

(Gözləri dolur).Uşaq evdə anadan oldu. Buna görə ki o-bu çox söz çıxartmasınlar, onu aldım dişimə kənddən şəhərə qaçdım və biləsin burda böyütdüm. Mən dərzilik elirəm, evlərdə paltar yuyuram, nəyisə çox çətinlik-nən geçinirk da. Qunça atasın görmüyüb, onun tərifin bircə mənim dilimdən eşidibdi, amma eləbilir ki özü də onu görübdü. Necə deyim, hərdən buda mənim örəyimi parça-parça eləyir. Atası çox mehriban və iyit bir kişi idi...
Bu çətinliklərə görə indiyəcən mən sırrımı kimsəyə açmamışam.

Atam çox çalışdı hacı ağadan mənə bir kağaz alsın, amma olmadı. O deyir özü şahaddı bizim nişanlı olmağımıza, amma bunu kəbin kəsmə hesab edə bilməz. Deyir "nə bəlli, bəlkədə uşaq ayrı bir kişidəndir!" Bu işə kağız verə bilməz. Atam deyir "bu işin düzəlməsi ağır bir pul istəyir .Versən hacı ağaya oxuya-oxuya yazar".

**Aydın** Siz ata-ananın sicillisin gətirə bilərsiz?

**Qadın** Gətirərəm.

**Aydın** Çox yaxcı. İşin qalanı mənim. Bir tanış taparam, bəlkə uşağa bir sicilli aldıq.

**Qadın** Olsun, gətirərəm. Amma çox təəssüf-nən deməliyəm ki mədrəsənin

xərcin verəbilmiyəcəyəm.

**Aydın** Mədrəsənin xərci mənim boynuma. Xıyalız rahat olsun.
**Qadın** Sağ olun. Siz bizə çox iyitlik, məhəbbət edirsiz. Soruşa bilərəm nə çün bir belə məhəbbətiz var bizə, bu uşağa?
**Aydın** Buna görəki **hələ öyrənməmişəm " mənə nə! „deyim**. Bəlkə bir gün məndə bu sözü öyrəndim. Yada birisi mənə də onu öyrətdi. **Onda hər şeyi düz görəcəyəm, indi isə tərsə, görürəm. Bu da bir naxoşluqdu ki tutan tez ölür!**
**Qadın** Yaşayın. Yaman gün görmüyəsiz. Bu bizim arzumuzdu, sizin üçün. Bağışlayın, mən çox gayam. Siz dediz ki Qunçanın müşkülün öz müşkülünüz bilirsiz.
**Aydın** Sizdə sağ olun. Əslinə baxsaz bu işi görmək mənim borcumdu. Burcu nə elərlər? Burcu vermək gərək. Məndə uşaq ikən çalışmışam. Bütün bu işləri ki indi uşaqlar xıyavanda görürlər yada iş yerlərində, məndə görmüşəm. **Kirbit, qaçaq sığara, adams, bilit, və hablə bir şeylər satmışam. Sonra əhək, kərpic kürələrində və ruznamə kaşı, səbzə karxanalarında çalışmışam. 8yaşından 14 yasınacan. Mən bütün bu işlərdə uşaqlığımı itirib əldən vermişəm. Onu amansızca məndən alıblar. Indi-nin indisi di hələdə onu arayıram** Bu arada birisi yoluma çıxdı, hər şeyi əlimdən alıb dedi" **bu işləri at qırağa, bunlar uşaq işi deyil, al kağız qələmi, get kitab, dərs dalısıca!** „Və illər boyu yardim etdi ki mən özümü batlaqdan qurtaram. Buna görə deyə bilmərəm "mənə nə".
**Qadın** Odu ki deyiblər „yananın dərdin yanıq bilər; Əslinin dərdin Kərəm bilər".
**Aydın** Bəs sabah saat 9-da idarə qabağında görüşərik.
**Qadın** Olsun, gələrəm.
**Aydın** Hələlik.
**Qadın** Hələlik.

**2.Pərdə**
**6.Səhnə**
**Sevinc**

**Qunça otaqda. Aydın, Cəlal və anası onun görüşünə gəliblər. Kef-əhvaldan sonra :**
**Qunça** Mama **,** doktor dedi toxtamışam, gedəbilərəm.(sevinc ilə xəbər verir).
**Ana** Bala ölümdən qurtuldun. Sevinirəm ki sağalıbsan.
**Aydın** İndi ki toxtamısan, bəs hazır ol mədrəsəyə gedəsən. Bu kifin...(Cəlal sözü kəsir).
**Cəlal** Buda paltarın. Adıyında yazdırmışıq.
**Qunça** (Hədiyyələri alıb baxır ). Vay! Yanı mən mədrəsəyə gedə bilərəm? Mersi əmi can. Mersi əmi can.(əmiləri-nən əl verir).

Mersi mama.(Mamasın öpür) Heç vaxt bir belə sevinməmişdim. Kaş ki xiyabandakı uşaqların hamısı mədrəsəyə gedə bilərdilər. Kaş ki dünyada hamı uşaqlar mənim kimin sevinərdilər. İstirəm dərs oxuyub müəllim olam. İstirəm goymuyam bir uşaq mədrəsəsiz qalsın. İstirəm uşaqların hamısı sevinc-inən böyüyələr...
Əmi, nəyə uşaqların əli mədrəsəyə çatmır?(Aydına sarı danışır).
**Aydın** Əmi can çox çətin bir söz soruşursan! Bunu yekələndə bilərsən. Yekələndə...
(Otaqdan eşiyə çıxırlar)

**7.səhnə**
**Nə cavab verim**

**Aydının otağı. Telefon zəng çalır. Aydın evdə dəyil. Bir neçə dəyqədən sonra Cəlal Aydının kilidi əlində otağa girir. Gözləri bərəli qalır! Hər şey bir-birinə vurulubdur! Qıçının altından bir kitab götürüb ünvanın oxuyur" Gül satan qız"; qoyur mizin üstünə:**
**Cəlal** (öz-özüynən)Mən sənə dedim işiyin vermə bizdən-yerlərin əlinə... Bax! Elə bil buraya qaban giribdi, hər şeyi vurublar bir-birinə! İndi bu uşağa nə cavab verəcəyəm?
Bunlarin əli ilan dişindən zəhərlidir. Və ürəkləri qənovun suyundan kirli.
Sən göyərçin kimi bəzəksiz -düzəksizsən, amma ilan kimi oyaq dəyil sən.
Görmürsən hər şeyi zəhərliyiblər, və gülləri ayaq altında yerə sürtürlər?! Qoxuq iyilərindən duru ürəklərin kölgəliyinə daldin, amma zəhərləri səni buraxmadı.
Gündüz üzlərin bəzədilər, gecələr , oğrular kimi , işləri talan oldu...
Sən vurğunsan dostum, vurğun. Sevgiyən giciyim gəlir, dost.
O sevgiyən ki yaşayış üçündü , insan, ot, təbiyyət üçündü.
Sevgiyən giciyim gərlir, dost.
Demədin mən bu uşağa nə cavab verim.
Demədin şayıtlarıyın cavabın... Ay, Qunça! Ay...
(Qunça bir ağ-tor donda ,balaca mələk kimi, içəri girir)
**Qunça** Əmi can yalqızsız ?
**Cəlal** Ey vay! Uşaq sən burda nə elir sən?
**Qunça** Əmi can siz çağırdız. Gəldim sizinlə danışam.
**Cəlal** Danışasan? Əmiy-nən?
**Gönçü** (O ayaq üstə gedib-gəlir. Sözləri bütün hərəkətlərinlə göstərir).
Həyə. Yalqız olmuyasız. İstirəm bu kitabdan danışam ki oğruların əlindən düşüb fərş üstə qalmışdır.
Mən hamı uşaqlar kimi bir uşağam. Amma, onlar kimi yaşamıram. Ürəyim çox şeylər istəyir, amma əlim çatmır. Işlırəm, evə xəş verirəm. Mədrəsəyə getmirəm. Heç bilmirəm niyə. Sevinc, ləzzət tanımıram; yaxın dostun aclıqdir. Gecələr bir-birin qucağında yatırıq. Olmuyub kimsə adımı soruşsun, hələ naxoşluqda da. Yalqızam lab yalqız. Məni Hərdən fikir götürür, ata-anamın, bacı-qardaşımın fikiri. İstirən onlara təzə par-paltar alım; hava soyuqluyub.Və diyəm ki mənə bir

cüt təzə başmaq alsınlar ki, adams, gül satanda, və maşın şüşəsi sıləndə ayaqlarım inciməsin. İstirəm bacı-qardaşımın əski paltarı üçün kimsə onlara toxunmasın.
Çox istirəm bir təzə məntorum olsun, amma, eləki deyirəm alsınlar, deyirlər „kefin sazdı, Pul hardadı; hələ evkirası dala düşüb". Hərdən gizlincə bir az pul yığıram. Özümə yox, böyüklər üçün. İstirəm onlara hədiyyə alım ki sevinsinlər; və mən onların gülüşlərin görüm. Böyüklərin gülüşlərini çox sevirəm. Əyə mən yanqılıb gülsəm qaş-qabaqların sallayıb deyərlər,"bəsdi, nu olub hərildirsən." Daha gülmək yadımdan çıxır. Bilmirəm, bəlkə böyüklər önəmlidirlər!
Ata-anam naxoşladılar pulum olmadı onları mərizxanaya aparım.
Qardaşıma iş tapabılmədım, getdi müqəddərat alış-verişinə düşdü, biləsin tutdular.
Günəş xanıma dedim:" Hava soyuqdur, şaxtadır, qardır, getmə, qal məni qızdır !
Sözümə baxmadı; məndə naxoşladım. Qar-yağış yağanda bizim evdə "nifi" ağlar, kasa-boşqab istər.
Və duvar anamın əlləri kimi çatlayar. Hami yorğun-arğın evə gələr, atam dərddən inildər ,anam acıqlanar.
İstirəm onları öpəm ,və diyəm ki bilələrin çox sevirəm; amma utanıram.
Naqqaşlığı çox sevirəm. İşləmişəm.
Yox, kağaz-midad pulu verməmişəm. Yanı yoxumudu ki verəm.
Mən barmağımla çəkmişəm. Başmaq, əlcək, kapşen, və günəş şəkillərin.
Qar üstündə! Ki böyüklər üşüyə-üşüyə onları görə, və canları qızıb dodaqları qaça. Dostum yoxdu.
Oyunla yeni tanış olmuşdum ki daha zamanım olmadı dost olam.
Oda məni buraxıb getdi. Və bir-yolluq mənim üçün özgə olub-qaldı.
Məni tanırsan?
Mən o cınqılı qızam, o cınqılı oğlanam. O açılmamış, solan, quncayam!
Uşağam. Hami uşaqlar kimi. Amma bir ayrı təhər yaşıram. Mənim Yaşayışımı başqa tərsim ediblər.
Qar ,buz üstündə yox; daş-dəmir üstündə! Ki başqa bir uşaq olum...
**Cəlal** Ax Qunça! Ax!...(O Səndəlin üstündə oturubdu, üzünü əlləriylə tutur. Bir qaç an. Eləki açır, görür uşaq yox olubdur). Özündən sonra...özündən sonra...özün kimi məni də dəli elədin!...
Yox, səni kimsə anlamaz! Qunçalarıda !...
Sən vurğunsan dostum, vurğun. Sevgiyən giciyim gəlir, dost...
Vay! Demədin mən bu uşağa nə cavab verim!...

Pərdə düşür.

Son